BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2005*

# XIX ƏSRİN II YARISININ ŞİMALİ AZƏRBAYCAN BƏDİİ ƏDƏBİYYATINDA MAARİFÇİLİK MƏSƏLƏLƏRİNİN ƏKSİ

S.A.İSMAYILOVA

XIX əsrin ikinci yarısında Azərbaycan ictimai fikrində maarifçilik ideologiyası formalaşıb bütöv bir xarakter ala bilir. Maarifçilik «yalnız müəyyən tarixi şəraitdə – cəmiyyətin məhsuldar qüvvələrinin məhz elmin, birinci növbədə fizika və təbiətşünaslığın nəticələrinə əsaslanan keyfiyyətli texniki tərəqqinin tələb etdiyi şəraitdə mümkündür». Klassik maarifçilik Fransada təşəkkül tapmışdı, orada maarifçilik burjuaziyanın bir sinif kimi formalaşmağa başlamasından əvvəl, burjuaziyanın əvvəlcə iqtisadi, sonra isə siyasi hakimiyyəti ələ keçirməyə başladığı zaman yaranmışdı. Azərbaycanda burjua cəmiyyətinin formalaşması Fransadan tamamilə köklü surətdə fərqləndiyindən sözsüz ki, Azərbaycan maarifçiliyinin özünəməxsus xüsusiyyətləri olmalıdır. Azərbaycanda maarifçilik ölkənin Rusiyanın müstəmləkəsi olduğu şəraitdə baş verdiyindən maarifçilik həm də milli-azadlıq hərəkatı ideyaları, müstəmləkəçiliyə qarşı mübarizə ilə çulğaşırdı. Azərbaycan maarifçilik hərəkatı qarşısında duran əsas vəzifələr: maariflənmək, müasirləşmək, mütərəqqi inkişafın qarşısını alan əngəlləri aradan qaldırmaq idi. «Maarif» və «maarifləşmə» Azərbaycan maarifçilərinin fikrinə görə, sadəcə olaraq mədəniyyəti yüksəltmək, «əlifba öyrətmək», «məktəb açmaq», «kitab çap etdirmək» və s. deyildi. Maarifçilik Azərbaycanda son dərəcə geniş məna kəsb edərək məktəb açmaqdan başlamış mövcud cəmiyyəti yenidən qurmağa qədər bütün məsələləri əhatə edirdi. S.Vəlibəyov maariflənmək uğrunda başlanan mubarizənin məqsəd və vəzifələrini belə şərh edirdi: «Hər bir dövlətin və xalqın maddi vəziyyəti başlıca olaraq xalq həyatı yüksəlişinin nəinki təkcə dini, həm də iqtisadi münasibətlərin bağlı olduğu maarifdən asılıdır. Maarif xalqın məişətini və rifahını yaxşılaşdırır, onun istehsalçılıq qabiliyyətini genişləndirir, xalqa zəhməti səmərəli etməyə tələbat yaradır, mövhumatdan azad edir. Ancaq maariflənmək üçün hər şeydən əvvəl xalqı savadlı etmək lazımdır» (9, 25).

Maarifi yaymaq maarifçilik hərəkatının inkişafında ilkin mərhələdir, sonrakı mərhələlərdə isə maarifçilik xalqı dini və mövhumi təsəvvürün buxovundan qurtarıb həyatı və məişəti, hətta bütöv cəmiyyəti yenidən qurmağa səfərbər etməkdir (9, 24).

Azərbaycan maarifçiliyi XIX əsrin ortalarından başlanan dünyəviləşmə prosesinin həyata keçirilməsini də öz qarşısına əsas

vəzifələrdən biri kimi qoymuşdu, çünki öz-özlüyündə aydın idi ki, mövhumat və cəhalətə qarşı mübarizə elmi biliklərin tətbiqindən kənarda qala bilməzdi (13, 4).

Məsələnin bir cəhətini də qeyd etmək lazımdır ki, Azərbaycan maarifçiləri islam dəyərlərinin qorunması mövqeyindən çıxış edir, müsəlman əhalisinin dini görüşlərinə böyük ehtiramla yanaşırdılar. Mövhumata, xurafata qarşı mübarizə islam dəyərlərinin saxlanılmasına xidmət edirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan maarifçilik hərəkatının önündə gedən, yeniliyi müsbət hal kimi qəbul edərək onu cəmiyyətə tətbiq edənlərdən biri də Həsənəli xan Qaradaği (1848-1929) idi. O, «elmsiz mollaları», «yalançı seyidləri» cəhalətin səbəbkarlarından biri kimi təqdim edirdi:

Tanrı şahiddi ki, çıxıb yaddan,
Hamı dərdim, irəli hər zaddan,
Mənə bir dərd-millətin dərdi.
... Qalmışıq indi biz cəhalətdə:
Kimi bizdəndi elmsiz molla,
Kimi dərvişidir, kimi mövla.
... Həddən aşmış yalançı seyyidlər.
... Daimi ürəkdə var bir arzum:
Olmasın nə zalım, nə də məzlum,
Kəsb edək biz də ülumü fünun
Olmayaq ta əsiri-sərnigun (6, 100-101)

Hər bir millətin və xalqın özünəməxsus mənafeyi olur, lakin öz təşəkkülünün ilkin mərhələsində o, öz mənafeyini dərk etməyə də bilər, «özündə millətdən», «özü üçün millətə» çevrilmə prosesində xalqın qabaqcıl adamları tərəfindən işlənib hazırlanmış və təlqin edilmiş ideyaların rolu həlledici olur (16, 5).

XIX əsrin ikinci yarısında, xüsusilə əsrin sonlarında Azərbaycanda əvvəlki dövrlərə nisbətən maarif sahəsində irəliləyiş özünü aydın göstərirdi. Bu, ilk növbədə, ölkənin ümumi ictimai-iqtisadi inkişafı ilə savadlı şəxslərə olan ehtiyacla bağlı olsa da, təbii ki, əsas səbəb Rusiya imperiyasının yeritdiyi siyasət idi. XIX əsrin ortalarından milli təhsilin inkişafına şərait yaradılması əslində kəramətdən yox, siyasətdən irəli gəlirdi (1, 175). S.Ə.Şirvani bu haqda belə yazırdı:

Xassə kim, padşahi-kişvəri Rus
Edəlü təxtü-ədlü dadə çülus,
Eləyib tərbiyət kəmal əhlin
Gətirib halə bir məhal əhlin.
Hər vilayətdə açdı məktəblər,
Çatdılar feyzə əhli-mənsəblər.
Oxunur onda müxtəlif dillər,
Həll olur onda cümlə müşküllər (15, 48-49)

XIX əsrin sonunda Azərbaycanda mollaxana məktəblərinin sayının artması müşahidə olunur, məktəbi bitirənlər ərəb əlifbasını bilir, yazıb-oxumağı bacarırdılar.

Milli oyanışın əlamətlərindən biri də azərbaycanlı zadəgan gənclərin Avropa ölkələrinin mədəniyyətinə, dilinə, siyasi və iqtisadi həyatına maraq idi. XIX əsrin ortalarında Şimali Azərbaycanda dünyəvi təhsil almaq istəyənlərin yönümü Rusiya ilə bərabər Qərbi Avropa, xüsusilə Fransa idi. Bu belə izah oluna bilərdi ki, o dövrdə Avropa ölkələrində müasir istehsalın, iqtisadi inkişafın tələblərinə uyğun olaraq dünyəvi elmlərin tədrisi aparıcı rol oynayırdı. Bundan əlavə Rusiya imperiyasında humanitar təhsil məsələsində üstünlük, sözsüz ki, qərb sisteminə verilirdi. Odur ki, gənclər Avropa təhsili almağa çalışırdılar. Bütün bunlar bədii ədəbiyyatda da öz əksini tapırdı.

Rusiya imperiyasında fransız dili saray dili, ali kübar təbəqənin yazı və danışıq dili idi. Qafqazda tədricən formalaşan kübar cəmiyyətində də fransız dili yüksək hərbi və mülki dairələrin danışıq dili idi. Cəmiyyətdə özünə layiqli yer tutmaq istəyən azərbaycanlı gənclərin fransız dilinə marağı məhz bu zərurətdən doğurdu. M.F.Axundov XIX əsrin ortalarında Azərbaycanda yaranan bu marağı, meyli «Hekayəti müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur» əsərində Şahbaz bəyin dili ilə belə ifadə edir: «Əmi, firəng dili mənə çox lazımdır. Bildir ki, Tiflisə məni arx çıxarmaq üçün izin almağa göndərmişdiniz, Allahverdi bəyin oğlu Tanrıverdi bəy Varşavada firəng dilini öyrəndiyi üçün hər məclisdə məndən hörmətli idi (2, 58). Şahbaz bəy Qarabağ bəylərinin ali təbəqəsinə mənsub idi ki, onun əmisi Təklə-Muğanlı obasının bəylərindən idi. M.F.Axundov Azərbaycan ali təbəqəsinin ölkənin siyasi və ictimai həyatında iştirak etməyə (12, 80) can atmasını məhz Şahbaz bəyin simasında verir. Şahbaz bəy əmisi Hətəmxan bəyə fransız dilini öyrənməkdə hansı məqsədi olduğunu deyir: «Mənim tay-tuşlarım tamam mərifət sahibi olub, qulluq edib hörmət-izzət tapıb, xoşbəxt olublar. Mən qalmışam elə qamışlıqda adsız-sansız (2, 65).

Şahbaz bəy əmisi ilə mübahisədə fransız dilini öyrənməkdə və Parisə getməkdə əsas məqsədinin məhz cəmiyyətdə hörmət və izzət sahibi olmaq istəyindən doğduğunu xüsusilə qeyd edir.

Avropa ölkələrində təhsil almaq cəhdi Azərbaycan cəmiyyətinin mühafizəkar qüvvələrinin müqavimətinə rast gəlir. M.F.Axundovun adı çəkilən əsərdə Hətəmxan Şahbaz bəyin Fransaya getməsinə və fransız dilini öyrənməsinə etiraz edir: «Firəng dili nəyinə lazımdır, əzizim? Sənə lazım olan ərəb, fars, türk, rus dilləridir ki, allaha şükür dövləti aliyyəmizin şəfqətindən açılan mədrəsələrdə hamısını oxuyub öyrənibsən (2, 58).

XIX əsrin son rübündə Azərbaycan cəmiyyətində təhsilə olan münasibətdə müəyyən irəliləyişlər nəzərə çarpsa da, geniş kütlə, xüsusilə kənd əhalisi təhsil kimi ciddi, həyati məsələdə fəal mövqe tutmurdu. Azərbaycanlıların yalnız müəyyən hissəsi adi ibtidai savada malik idi. N.Nərimanov bu real vəziyyəti «Nadanlıq» (1895) əsərində geniş işıqlandırır. Kənd əhalisinin təhsilə biganəliyini müəllif hacı Abdullanın monoloqu ilə belə ifadə edir: «Gör sən al-

lah, nə sarsaq-sarsaq işlər görürlər! Özgənin kəndində şkol açılır, bizmi pul verək və mənim nəyimə lazımdır, şkol açılır», «oxumaqdan qara adamın ağlını aparır» (11, 37). Burada məsələnin bir cəhətini xüsusilə qeyd etmək lazımdır ki, kənd əhalisinin böyük əksəriyyəti savada ehtiyac duymurdular.

Azərbaycan gənclərinin təhsilə biganəliyinin təbii ki, həm obyektiv, həm də subyektiv səbəbləri vardı. N.Vəzirov «Ev tərbiyəsinin bir şəkli» (1875) adlı əsərində Səftərqulu və Rəsulun təhsil almaqdan, oxumaqdan hər cür ciddi-cəhdlə boyun qaçırmalarını çox qabarıq şəkildə vermişdir. Rəsul oxumaq istəməməsini belə aydınlaşdırır: «Mən oxuyuram özüm billəm, oxumuram özüm billəm... Heç kimə borc deyil... Atam məni tutubdur ki, gərək bir-iki ilə tamam eləyəsən, mən də bacarmıram. Nə eləyim, qabiliyyət yoxdur, allah verməyib. Özümü öldürüm? Baş üstə öldürrəm (18, 20). Rəsul təhsil almaq istəyir, lakin atası Bayraməlinin qabalığı, kobudluğu, təhsil haqqını vaxtında verməməsi, onun özünün də təhsilə kifayət qədər maraq göstərməməsi Rəsulun təhsilə marağını öldürür (18, 24-25).

N.Vəzirov «Adı var, özü yox» (1891) əsərində də azərbaycanlı gənclərin, özü də varlı təbəqədən olan gənclərin təhsilə meyllərinin olmaması, oxumaq istəməmələri məsələsinə toxunur. Cənnətəli ağa oğlu Heydərqulunun oxumaq istəmədiyini böyük ürək ağrısı ilə qeyd edir: «... nə qədər əlləşdim, oxumadı... Əvvəl qoydum məktəbxanaya, üç gündən sonra qaçdı, dedi ki, oxumuram... Dinmədim... Ondan qoydum uşkola... özüm getdim direxturun yanına, hələ bir at da vədə elədim... Oxumadı. Bir həftədən sonra qaçdı getdi qırğı ovlamağa» (17, 86).

Çar Rusiyası Şimali Azərbaycanda öz müstəmləkə sistemini qurandan sonra azərbaycanlılar həqarətlə tatar, dilimiz isə «tatar dili» adlandırıldı. XIX əsrin ikinci yarısından Şimali Azərbaycan bədii ədəbiyyatında milli oyanışın əsas əlamətlərindən biri də dilimizin «türk dili» olmasının xatırladılması idi:

Nə olur nəqli-ənbiyayi-cahan,
Ola türki dilində xəlqə bəyan. (14, 101)
... İndi Şirvanda açmışıq məktəb,
Dərsimiz rusü, türkü, farsu ərəb. (14, 119)
... Bizimçün laməhalə, üç dilin təlimi lazımdır,
Biri elmi-ərəbdir kim, bilək mənayi-Qurani,
... Biri vacib bizə bilmək vətəndə söylənən dildir,
Gərəkdir mətləbə biz eyləyək türkiylə ünvani (14, 188)

Bu dövr Azərbaycan bədii ədəbiyyatında özünə yer tapan problemlərdən biri də ana dilinə münasibət məsələsi idi. Məlum olduğu kimi Azərbaycan dili xalqımızın doğma dili idi, əsas danışıq dili idi. Qafqazda ən geniş yayılmış bu dil qonşu xalqlar arasında ünsiyyət vasitəsi idi. Lakin elmi ədəbiyyat Azərbaycan dilində, «türki dilində» yazılmırdı. Bu da təbii ki, Azərbaycan dilinin hörmətini aşağı salırdı, ona qarşı biganəlik oyadırdı. N.Nərimanov «Bahadır və Sona» romanında XIX əsrin son rübündə Azərbaycan cəmiy-

yətinin bəzi təbəqələri içərisində öz doğma ana dilinə – «türk dili»nə etinasız münasibət məsələsinə toxunur və belələrini kəskin tənqid atəşinə tutur (11, 150, 162-163). Məlum olduğu kimi XIX əsrin sonlarında Osmanlı imperiyasında «Osmanlı ləhcəsi» kimi çox qəliz, fars və ərəb sözləri ilə yüklənmiş bir ləhcə meydana çıxmışdı. Bu ləhcənin Azərbaycanda da tərəfdarı vardı. Ziyalıların müəyyən qismi məhz Osmanlı ləhcəsində yazıb-yaradırdılar. Təbii ki, əhalinin az savadlı və hətta savadlı hissəsi belə bu ləhcəni çətin başa düşürdü. Əlbəttə söhbət yalnız sadə etinasızlıqdan getmirdi, öz doğma ana dilinə – türk dilinə belə etinasızlıq daha ciddi məsələlərdən xəbər verirdi: «Yazanlarımızın əksəri ərəb və fars sözlərini bilməkdə hünərlərini göstərmək istəyirlər. Bundan savayı, bu cür dəxi əhli-qələm vardır ki, özlərini xalqın nəzərində artıq göstərməkdən ötəri şerlər düzəldirlər. Bizim əhli-qələm, fikirlərini bu yerə qoyublar ki, nişanları həmişə fəsahə və bəlağətlə yazsınlar; çünki sadə türk dili ilə yazanları nadan hesab edirlər» (11, 151).

N.Nərimanov «Bahadır və Sona» romanında bəzi azərbaycanlı qızların öz doğma dillərinə yuxarıdan aşağı baxdıqlarını da göstərir: «Mən türkcə sual edirdim, qız mənə rusca cavab verirdi... Mənim «elmlərdən hansı xoşunuza gəlir?» sualına qız «Firəng dili»... Axırda mənim: - Türkcə yazmaq, oxumaq bilirsinizmi? sualıma qız cavab verdi ki, «Türk dili nədir ki, ona gözəl vaxtımı çürüdüm və nəyə lazımdır...? Gör bir, sən özün türk qızı olasan öz dilini bəyənməyəsən» (11, 162-163).

Milli oyanışın əlamətlərindən biri uşaqlar üçün milli ədəbiyyatın yaranması idi. Qabaqcıl müəllimlər, şair, ədiblər şagirdlərdə təbiət hadisələri haqqında düzgün elmi təsəvvür yaratmaq üçün, elmi izahları yadda asan saxlamaq üçün qısa şerlər də yazırdılar. Bu sahədə Həsənəli xan Qaradagi xüsusi ilə təqdirəlayiq fəaliyyət göstərmişdi (6, 5).

Məktəb şagirdləri üçün onların asanlıqla başa düşəcəkləri, onların əhvali-ruhiyyəsinə uyğun, nikbin və şən ruhlu şərqilər, mahnılar yazılır. F.Köçərli «Balalara hədiyyə» adlı kitab yazır, ilk dəfə «Vətən dili» dərsliyinin I hissəsi (1883), sonra II hissəsi (1889) çap edilir (3, 158-159).

XIX əsrin ikinci yarısında Azərbaycanın ictimai həyatında maarifə, elmə, təhsilə himayə, yardım göstərən şəxslər, cəmiyyətlər vardı və bu problem də bədii ədəbiyyatda öz əksini tapır. S.Ə.Şirvani «Həsən bəy Həbibbəyova» adlı şerində yazır:

Ol Həsən bəy kim, onun çox görmüşəm ehsanını,
Hamıdan əfzun Şamaxıda edib hörmət mənə.
Çox fəqirin lütfü ehsan ilə tutmuşdur əlin,
Bu sözün isbatına vardır neçə hüccət mənə.
Eylədi hər il müsəlman məktəbiyçün lütflər,
Gərçi axırda o məktəb olmadı qismət mənə.
Eylədi aclıq ilində çox gözəl əncamlar,
Söyləyirdi, xəlq zəhmətdə, nədir rahət mənə (14, 220-221).

N.Nərimanov «Bahadır və Sona» əsərində XIX əsrin son rü-

bündə Azərbaycanda varlı adamların xeyriyyəçilik fəaliyyətinə biganəlik göstərməsini xüsusi ilə qeyd edir: «... Məgər müsəlmandan azmı dövlətli var? Bu biçarələrin hətta cəmiyyəti-xeyriyyələri də yoxdur. Xülasə işləri çox çətindir. Sözlə bunlara qandırmaq mümkün deyil, gərəkdir ki, bu millət arasında mədəniyyət yayıla, onda özləri anlayarlar, millət nədir, hümmət nədir» (11, 153). N.Nərimanov xeyriyyəçilik fəaliyyəti qarşısında duran əsas vəzifələrdən birini də gənc yazıçılara öz əsərlərini çap etdirmək üçün maddi yardım etməkdə görürdü (11, 153).

XIX əsrin sonunda Azərbaycan cəmiyyətində mövcud olan mədəni gerilik, təhsilə biganəlik, təhsilin xeyirsiz olması, adam öldürməyi, asıb kəsməyi «kişilik» saymaq meyli, nadanlıq bədii ədəbiyyatda öz əksini tapır. N.Nərimanov «Nadanlıq» adlı dram əsərində bu problemi hərtərəfli işıqlandırır (10, 18-54). «Nadanlıq» dedikdə ilk növbədə savada, təhsilə, elmə biganəlik nəzərdə tutulur. Artıq cəmiyyətdə tənqid olunan, qəbul edilməyən əxlaq normaları kəskin pislənir, xüsusilə qəsdən, səbəbsiz adam öldürülməsi və s.

«Nadanlıq» əsərində N.Nərimanov XIX əsrin sonunda Azərbaycan cəmiyyətində yaranan yeni ictimai mühitin nadanlığa qarşı mübarizəsini ön plana çəkir, nadanlığa qarşı mübarizə aparan qüvvələrin qarşılaşdığı çətinlikləri göstərir. XIX əsrin sonlarında Azərbaycan cəmiyyətində, xüsusilə kənd yerlərində nadanlığa qarşı mübarizə aparan əsas qüvvələr artıq təhsil almış, savadlı gənclərdir. Müəllif onların fəaliyyətinin müsbət nəticələrə gətirib çıxardığını da göstərir. Real həyatda olduğu kimi, əsərdə nadanlığın əsas cəhətləri konkret olaraq göstərilir. Nadanlıq nədir? N.Nərimanov əsərində nadanlığın aşağıdakı formalarını göstərir: kənd yerlərində yeni – ana dilli məktəblərə şagirdlərin cəlb edilməsinin çətinlikləri, bu çətinliklərin obyektiv və subyektiv səbəbləri, təhsilli gənclərin mütləq kənd təsərrüfatı işləri ilə deyil, rəsmi dövlət idarələrində məmur kimi çalışmaları fikri, «rus dilində təhsil alanların» düz yoldan çıxması, yəni Azərbaycan adət və ənənələrinə biganəliyi, hər bir təhqirə təhqir və ya dava-dalaşla cavab vermə, kiçik yaşlı qızla evlənmə, kəndlərdə kütləvi bisavadlıq, mal-qara oğurluğunun eyib sayılmaması və bu halların aşkar edilməsindən narazılıq, bir sıra hallarda insanların qətlə yetirilməsinə nə səbəbə görə isə haqq qazandırılması, quldurluq və qoçuluğa haqq qazandırılması, doğmalara qəddarlıq və s.

XIX əsrin ikinci yarısı, xüsusilə əsrin sonlarında böyük ictimai bəla olan nadanlıq Azərbaycanın dünyaya inteqrasiya edilməsi yolunda ən əsas maneə idi. Nadanlığın saxlanılmasında marağı olan qüvvə ilk növbədə Rusiya imperiyası idi. Məhz nadanlıq xalqın ümumi inkişafının qarşısını alan əsas çəpərlərdən biri idi. Azərbaycanı itirməmək üçün imperiya ümumi geriliyin aradan götürülməsində maraqlı deyildi. Azərbaycanın kənd və şəhər əhalisinin dünyəvi təhsil almaqdan məhrum olmaları, özlərinin də bu növ təhsilə biganəliyi, təhsildən dərhal maddi və mənəvi xeyir görmək tələbi N.Nərimanovun «Nadanlıq» əsərində Vəlişin dilindən

belə verilir: «A kişi, rusca da oxuyanın ağlımı olar? Qara adamın ağlını alıb gedir» (10, 50).

«Nadanlıq» əsərinin qəhrəmanı Ömər nadanlığın əsas səbəbini «müsəlman millətinə yol göstərənlərdə» (10, 51) görür: «Bunlar insanlara lazım olan qanunları buraxıb, cüzi qanunlar ilə başını tovluyublar. Millət mədəniyyətdən uzaq düşüb. Yaman bir halda bulunur. Bu tövr bədbəxtlik hər bir millətin içində olubdur, amma onlar bizdən tez anlayıb oxumağın dalınca gediblər və bu tövr bəlalardan xilas olublar» (10, 51). Deməli, nadanlığın aradan qaldırılmasının əsas yollarından biri – mədəniyyətə yiyələnməkdir.

N.Vəzirovun «Müsibəti-Fəxrəddin» (1896) faciəsində ortalığa atılan problemlərdən biri də nadanlıq problemidir. Nadanlığın ən mübariz formalarından biri qan düşmənçiliyi olub: qana-qan. Heydər bəylə Rüstəm bəy arasındakı ədavət Rüstəm bəyin oğlu Rəşidin qisas üstündə öldürülməsinə, bu isə öz növbəsində Rüstəm bəy tərəfindən Heydər bəyin qətlə yetirilməsinə gətirib çıxarır. Fəxrəddin bəy və Səadət xanım qan düşmənçiliyinin əleyhinə olsalar da hər iki ailənin üzvləri arasında bu ədavət üstündür. Həm Fəxrəddinin anası Mələk xanım, həm də Rəşidin atası Rüstəm bəy mütləq qan intiqamının alınmasının tərəfdarıdırlar. Rüstəm bəy özünün «qəhrəmanlığını» belə təsvir edir: «... Mən ölmüşəm ki, Fəxrəddin gəlib burada ad çıxartsın... Rəşid oğlun qanı yerdə qalsın. O mən deyiləm... hərgah onu atası yolu göndərməsəm, bu papaq mənə övrət ləçəyi olsun» (18, 103).

Ə.Haqverdiyev demokratik baxışlı ziyalıları «Bəxtsiz cavan» əsərində Fərhad bəyin simasında qabarıq təsvir etmişdir. Fərhad bəyin siyasi görüşləri demokratik xarakter daşıyırdı. O, kəndlilərin şəxsiyyətinin yüksək qiymətləndirilməsini tələb edirdi: «Siz rəiyyətə heyvan deyirsiniz. Öz alnının təri ilə çörək qazanan heyvan deyil, bəlkə xalis insandır» (5, 158).

XIX əsrin sonlarında yaranan bədii ədəbiyyatda maarifin, təhsilin, savadın, məktəbin, ümumiyyətlə savadlı adamların rolu son dərəcə yüksək qiymətləndirilirdi, onlar ideallaşdırılırdı.

N.Vəzirov «Müsibəti-Fəxrəddin» əsərində azərbaycanlı müəllimləri bir növ kəndin elmi işçisi, ziyalısı, aqronomu simasında görür. Özü də müəllim kənddəki bütün yeniliklərin, dəyişikliklərin, ictimai tərəqqinin başında durmalı idi. N.Vəzirov Azərbaycan ədəbiyyatında ilk ideal ziyalı surəti yaradır. Belə ki, Fəxrəddin bəy təmənnasız olaraq kənddə həm əkinçilik, bağçılıq, həm də maarif işləri ilə məşğul olmalıdır (16, 40). «Cənab Fəxrəddin bəy də özü həm bağban, həmi dirrikçi, həmi məktəbxana müəllimi» (18, 110).

S.M.Qənizadə məktəbin Azərbaycan cəmiyyətinin, xüsusilə Azərbaycan kəndinin inkişafında, onun cəhalət və mövhumat bataqlığından çıxmasında yerini əvəzsiz sayırdı: «Bizlər üçün əgər bir çıraq yanacaqsa, məktəb ocağının şöləsindən yansın gərəkdir. Cəhalət mülkünə qədər bir məktəb doğacaq isə, yenə məktəb divarından tülu edəcəkdir... Əgər sultanlıq istərsən, dəri-məktəbdə xadim ol!... («Gəlinlər həmayili». 1898-1900) (7, 30).

XIX əsrin ikinci yarısında əsasən xristian məzhəbli Avropa ölkələrinin islam məzhəbli Şərq ölkələri – İran, Türkiyə, Azərbaycan, Əfqanıstan və s. nisbətən ictimai-iqtisadi və sosial-mədəni cəhətcə inkişafı göz qabağında idi. Müsəlman ölkələri xristian Avropa ölkələri – İngiltərə, Fransa, Almaniya, Rusiyanın müstəmləkə siyasətinin obyekti idilər. Təbii ki, müsəlman ölkələrinin mütərəqqi görüşlü ziyalıları bu geriliyin səbəbini araşdırır, onun səbəbini bilmək istəyirdilər. Müxtəlif doktrinalar yaranır və onun içərisində C.Əfqaninin «İttihadi islam» doktrinası xüsusi yer tutur. Bu doktrinaya görə millətin tərəqqisinə nail olmaq istəyən hər kəs birinci növbədə özünü tanımalıdır, soyuna, kökünə bağlanmalıdır, dilinə, dininə sarınmalıdır (8, 19).

S.Ə.Şirvani Azərbaycan cəmiyyətinin geriliyinin səbəblərini araşdırır və bu səbəbləri elə Azərbaycan cəmiyyətinin özündə, onun yeniliyə meyl etməməsində, öz taleyinə biganəliyində görür. «Ziya» qəzetinə ünvanladığı şerində şair bunu çox aydın bir şəkildə söyləyir:

Oxuyaq biz qəzetlər əhvalın,
Ta bilək əhli-aləmin halını –
Ki, görək xəlq nə kəmaldədir,
Qeyr nə fikir, nə xəyaldədir?
Özgələr eyləyib tərəqqiyi-tam,
Niyə biz qalmışıq bu növ əvam?
Niyə biz bunca bikəmal olduq,
Ayaq altında payimal olduq? (14, 65).

Məlum olduğu kimi XIX əsrin ikinci yarısında, xüsusilə əsrin son rübündə Azərbaycanda ümummilli mənafeyi ifadə edən firqə, təşkilat, partiya, qrup belə yox idi. Həsən bəy Zərdabi «Əkinçi» qəzetinin birinci nömrəsində Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən yazır: «Bir neçə ildir ki, Rusiya dövlətinə tabe olmuşuq... biz özümüzü Rusiya dövlətinə tabe hesab edirik» (4, 19). H.Zərdabi Azərbaycan xalqına qarşı münasibətdə Rusiya dövlətinin yeritdiyi siyasətin rus xalqına olan münasibətdən kəskin fərqli olduğunu qeyd edir: «Rusiya dövləti öz əhli ilə elədiyi rəftarı bizim ilə də eləsə o vaxtda bizim üçün məqami şikvaya narazılıq yoxdur» (4, 19). S.Ə.Şirvani bu məqama toxunaraq yazırdı:

Millətin qeyrətin çəkən yoxdur,
Toxmi xoşbəxtlik əkən yoxdur (14, 134).

**ƏDƏBİYYAT**

1. Ağabalayeva S. Fələyin bir belə dövrü olacaqmış, nə bilim // Azərbaycan, 2004, № 10, s. 174-179.
2. Axundov M.F. Əsərləri: 3 cilddə, I c., Bakı: Elm, 1987, 320 s.
3. Bəktaşi İ. Firidun bəy Köçərlinin yaradıcılıq yolu. Bakı: Yazıçı, 1986, 184 s.
4. Əkinçi: Tam mətni. Bakı: Azərnəşr, 1975, 464 s.
5. Haqverdiyev Ə. Seçilmiş əsərləri. Bakı: Maarif, 1987, 179 s.
6. Qaradaği H. Əsərləri. Bakı: «Şuşa» nəşriyyatı, 2001, 168 s.
7. Qənizadə S.M. Gəlinlər həmayili. Bakı: Yazıçı, 1986, 271 s.

8. Qurbanov Ş. Cəmaləddin Əfqani və Türк dünyası. İкinci nəşr. Baкı: Azərbaycan Dövlət Nəşriyyatı, 1997, 220 s.
9. Məmmədov X. XIX əsrin sonu – XX əsrin əvvəlində Azərbaycan maarifçi realist ədəbiyyatı (xüsusi кurs). Baкı: APİ nəşri, 1978, 112 s.
10. Nərimanov N. Əsərləri. Baкı: Azərbaycan Dövlət Nəşriyyatı, 1956, 280 s.
11. Nərimanov N. Seçilmiş əsərləri. Baкı: Azərbaycan Dövlət Nəşriyyatı, 1985, 387 s.
12. Rəfili M. Mirzə Fətəli Axundov. Həyatı, mühiti və yaradıcılığı. Baкı: Elm, 1990, 256 s.
13. Rüstəmov İ.Ə. XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fiкrin vəhdəti. Baкı: Azərnəşr, 1992, 120 s.
14. Şirvani S.Ə. Seçilmiş əsərləri: 3 cilddə, II c., Baкı: Azərb. SSR EA nəşriyyatı, 1969, 650 s.
15. Şirvani S.Ə. Öyüd. Baкı: Gənclik, 1989, 160 s.
16. Vəlixanov N. Azərbaycan maarifçi-realist ədəbiyyatı. Baкı: Elm, 1983, 160 s.
17. Vəzirov N. Seçilmiş əsərləri. Baкı: Elm, 1977, 444 s.
18. Vəzirov N. Seçilmiş əsərləri. Baкı: Maarif, 1991, 215 s.

## ОТРАЖЕНИЕ ЗАДАЧ ПРОСВЕТИТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНСКОЙ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЕ II ПОЛОВИНЫ XIX ВЕКА

**С.А.ИСМАИЛОВА**

### РЕЗЮМЕ

В статье анализируется осмысление Азербайджанской художественной литературой II половины XIX века стоявших перед просветительским движением XIX века таких как просвещение, современность, преодоление, мешающих прогрессивному развитию, препятствий, борьба с невежеством, призыв к национальному единению, указывается на реалистическое отображение в художественном творчестве Г.Гараджадаги, А.Ахвердиева, Н.Везирова, С.А.Ширвани, М.Ф.Ахундова, Н.Нариманова перипетий азербайджанской истории и проблем просветительства.